

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 2 (23.889)

*6 yanvar 2022-ci il, cümə axşamı*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Azərbaycan xalqına müraciət edib. Müraciətdə bildirilib ki, 2021-ci il ölkəmiz üçün uğurlu il olmuş, Azərbaycan uğurla inkişaf edərək daha güclü ölkə kimi dünyada tanınmışdır.

Bütün dünyanın İkinci Qarabağ müharibəsinin nəticələrini qəbul etdiyini vurğulayan dövlətimizin başçısı qeyd edib ki, Azərbaycan xalqı İkinci Qarabağ müharibəsini, işğal dövründə törədilmiş vəhşilikləri unutmamalıdır. Azərbaycan hərbi gücünü bundan sonra da artıracaq. Müraciətdə azad edilmiş torpaqlarda geniş quruculuq-bərpa işlərinə start verilməsindən, Azərbaycan iqtisadiyyatının dinamik inkişafından bəhs olunub. Prezident İlham Əliyev müraciətdə deyib: "Biz 2022-ci ildə Şuşa şəhərinin 270 illiyini qeyd edəcəyik. Pənahəli xan 1752-ci ildə Şuşanın təməlini qoyub və biz yeni ildə bu yubileyi böyük təntənə ilə qeyd edəcəyik. Bu şanlı tarixi nəzərə alaraq və Şuşanın bərpasını sürətləndirmək məqsədilə mən yeni ili "Şuşa İli" elan edirəm".

Dövlətimizin başçısı 2022-ci ilin də uğurlu olacağına əminliyini ifadə edib, Prezident kimi, Ali Baş Komandan kimi hər zaman Azərbaycanın maraqlarının keşiyində duracağını, ölkəmizin hərtərəfli inkişafı, hərbi gücünün artırılması, vətəndaşların daha yaxşı yaşaması üçün əlindən gələni əsirgəməyəcəyini bildirib.



## Naxçıvan Muxtar Respublikasında Yeni il şənlikləri keçirilib





Ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttinin uğurla davam etdirilməsi Azərbaycanı və onun Naxçıvan Muxtar Respublikasını daha xoş sabahlara qovuşduracaqdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə dünya azərbaycanlılarına müraciətində dediyi kimi: ***"Bu il ölkəmiz üçün uğurlu olub. Əminəm ki, 2022-ci il də uğurlu olacaq. Çünki ölkədə mövcud olan birlik, həmrəylik və gözəl ab-hava bu reallığı bizə təmin edəcək".***

Bu gün muxtar respublika sakinlərinin birlik və həmrəylik duyğularının, yeni il sevinclərinin qayəsində də ulu öndərin siyasi xəttinə sonsuz inam və sədaqət dayanır. Qurub-yaratmaq əzmi ilə yaşayan muxtar respublika əhalisi yeni ili bayram sevinci ilə qarşılayır.

Yanvarın 1-də Naxçıvan şəhərində yeni ilin gəlişi münasibətilə bayram şənliyi keçirilmişdir.

Naxçıvan şəhərinin Heydər Əliyev prospektində təşkil olunan bayram şənliyində şən mahnılar səsləndirilmiş, Naxçıvan Dövlət Kukla Teatrı aktyorlarının ifasında səhnəciklər təqdim edilmiş, muxtar respublikada fəaliyyət göstərən 30 istehsal və xidmət müəssisəsi, eləcə də ailə təsərrüfatları tərəfindən əhaliyə ictimai iaşə xidməti göstərilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bayram şənliyində təşkil edilən ictimai iaşə xidmətinin təşkili ilə maraqlanmış, sakinlərin bayramını təbrik etmiş, uşaqlara hədiyyələr vermişdir.

Ali Məclisin Sədri 2021-ci ilin sabitlik, inkişaf, tərəqqi və sosial rifahla başa vurulduğunu bildirmiş, 2022-ci ildə də bu işlərin davam etdiriləcəyini diqqətə çatdırmış, həyata keçirilən tədbirlərdə əməyi olanlara təşəkkür etmişdir.

Həmin gün muxtar respublikanın rayon mərkəzlərində də yeni il şənlikləri keçirilmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**



## Kənd təsərrüfatının inkişaf etdirilməsi baxımından mühüm uğurlar əldə olunmuşdur

Ötən il muxtar respublikada bütün parametrlər üzrə iqtisadi sabitliyə və davamlı inkişafa nail olunmuş, digər sahələr kimi, kənd təsərrüfatının da inkişaf etdirilməsi, ərzaq təhlükəsizliyinin təmin edilməsi də diqqətdə saxlanılmışdır. Belə ki, 2021-ci ilin məhsulu üçün muxtar respublikada 64 min hektardan artıq sahədə əkin aparılmışdır. Əkilmiş sahələrin 32 min 721 hektarını taxıl təşkil etmiş, zəmilərdən 103 min tondan artıq məhsul yığılmışdır.

Qarğıdalı əkinlərinə də diqqət artırılmış, məhsulun vaxtında toplanması üçün tədbirlər görülmüş və tələbatın yerli istehsal hesabına ödənilməsinə nail olunmuşdur. Ötən il 2150 hektar qarğıdalı sahəsindən 21 min tona yaxın məhsul tədarük edilmiş, hər hektarın orta məhsuldarlığı 96 sentner olmuşdur. Bostan-tərəvəz məhsullarına olan tələbat da nəzərə alınmış, muxtar respublika üzrə 6203 hektar sahədə tərəvəz, 2479 hektar sahədə bostan əkinləri həyata keçirilmiş, 102 hektar yeni meyvə bağı salınmışdır. Bundan başqa, 3470 hektar sahədə kartof, 52 hektar sahədə tütün əkini aparılmışdır ki, bu da bir il əvvəlki göstəricilərlə müqayisədə 7 və 16 faiz çoxdur.

Muxtar respublikada əkinçiliyin inkişafında başlıca amil olan toxumçuluq sahəsi də dövlət qayğısından kənarda qalmamış, torpaq mülkiyyətçilərinin məhsuldar və yerli iqlim şəraitinə uyğun toxumlarla təminatı sahəsində ardıcıl tədbirlər görülmüşdür. 2021-ci il iyulun 15-də "Naxçıvan Toxumçuluq Mərkəzi" publik hüquqi şəxsin yaradılması muxtar respublikada toxuma olan tələbatın yerli istehsal hesabına ödənilməsi və bu sahədə dövlət nəzarətinin gücləndirilməsi baxımından mühüm əhəmiyyətə malik olmuşdur.

Müasir kənd təsərrüfatı texnika və texnoloji avadanlıqları ilə təminat kənd təsərrüfatının davamlı inkişaf etdirilməsində fəal iştirak etmək baxımından torpaq mülkiyyətçiləri və fermerlər üçün böyük stimuldur. "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 2021-ci ildə 327 müxtəlif adda kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq alınmış, 346 texnika lizinq və nağd yolla satılmış, məhsul istehsalçıları 7 min tondan artıq mineral gübrə ilə təmin edilmişdir.

Yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması, mütərəqqi suvarma şəbəkələrinin qurulması və münbitliyin artırılması əkinçiliyin inkişafına əhəmiyyətli təsir göstərmişdir. "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin artırılmasına dair Tədbirlər Planı"nın icrası diqqətdə saxlanmış, Kəngərli rayonunun Böyükdüz kəndində 363 hektar sahədə qapalı suvarma şəbəkəsi tikilmişdir. Şahbuz rayonunun Külüs, Nursu və Mahmudoba kəndlərinin ərazisində 340 hektar sahəni su ilə təmin edən nasos stansiyasının tikintisi başa çatdırılmışdır. Ötən dövrdə muxtar respublikanın şəhər və rayonlarında dövlət ehtiyat fondu və qış otlaq sahələri üzrə 8583 hektar əkinəyararsız torpaq sahələri xəritələşdirilmiş, muxtar respublika ərazisindəki 214 kilometr kanalın və 429 kilometr kollektor-drenaj şəbəkəsinin əhatə etdiyi ərazilərin topoqrafik planları hazırlanmışdır.

**Xəbərlər şöbəsi**

# Naxçıvan dünən

## Badamlı mədən suları zavodunun işində dönüş yaradılmalıdır

***Badamlı mədən suları zavodu Naxçıvan MSSR-in iri sənaye müəssisələrindən biridir. Zavod 1949-cu ildən istifadəyə verilmiş və onun normal işləməsi üçün dövlət tərəfindən kifayət qədər dövriyyə vəsaiti buraxılmışdır. Təkcə əsaslı kapital qoyuluşu işlərinə 6 milyon manat pul xərclənmişdir...***

1956-cı ildə mexanikləşdirmə işlərinin əsasən başa çatdırılması nəzərə alınaraq "İnvesta" dəzgahının tam gücünün 34,5 faiz hesabı ilə 9,6 milyon butulka su istehsal etmək üçün dövlət planı müəyyən edilmiş, sonra SSRİ hökumətinin sərəncamına uyğun olaraq əlavə 400 min butulka mədən suyu istehsal etməkdən ötrü tapşırıq verilmişdir. Həmin il dövlət planını yerinə yetirmək üçün zavodun sərəncamına bir milyon manatlıq dövriyyə vəsaiti buraxılmışdır. Bu qədər böyük imkan və şəraitin olmasına baxmayaraq, zavodun direktorluğu keçən ilin və 1957-ci ilin birinci kvartalı üzrə dövlət planlarının yerinə yetirilməsini təmin edə bilməmişdir.

Zavod üzrə ümumi məhsul istehsalı planı 1956-cı ildə 89,2 faiz, 1957-ci ilin birinci kvartalında isə 73 faiz yerinə yetirilmişdir. Burada əmək məhsuldarlığı 6,6 faiz aşağı düşmüş və buraxılan məhsulun maya dəyəri 8,3 faiz artıq olmuşdur. Təkcə maya dəyərinin artırılması hesabına 1956-cı ildə dövlətə 532 min manat ziyan vurulmuşdur.

Sənədləşdirilməmiş boş dayanmalar nəzərə alınmazsa, il ərzində 300 maşın-saat və ya 26700 fəhlə-saat boş dayanma olmuşdur. Zavodun direktorluğu təsərrüfatsızlıq və cinayətkarlıq edərək təbii sınma normasından əlavə 1 milyon manatlıq butulka taranın artıq xərclənməsinə, 800 min manatlıq mədən suyunun brak edilməsinə və 200 min manatlıq əməkhaqqı, ezamiyyə xərci, nəqliyyat, habelə başqa işlər üzrə cərimə və digər xərclərin artıqdan ödənilməsinə yol verməklə təkcə 1956-cı ildə dövlətə 2 milyon manatlıq ziyan vurmuşdur.

Zavodun sabiq rəhbərliyi 1956-cı ilin iyun ayında dövriyyədən qayıtmış 590 min ədəd butulkanı kənarda yuyulmadan istehsalata buraxmışlar ki, bunun da nəticəsində, həmin ayda 546 min butulka mədən suyu brak olmuşdur. 1955-ci ildən qalmış olan 247,3 min butulka mədən suyu da daxil olmaqla, cəmi 793,3 min butulka suyun brak edilməsinə sənədlər tərtib edilmiş və bu hesabla müəssisəyə 609,2 min manatlıq ziyan vurulmuşdur.

Zavodun direktoru özbaşınalıq edərək keçən il ərzində 94, 1957-ci ilin birinci rübündə isə 32 nəfər fəhlə və qulluqçunu müxtəlif bəhanələrlə işdən kənarlaşdırmışdır. Zavod direktorunun ünvanına yazılmış 400-dən artıq şikayət ərizəsinin çoxuna cavab verilməmiş, verilmiş cavablar isə kifayətləndirici olmamışdır.

Badamlı mədən suları zavodunun işini yaxşılaşdırmaq üçün lazımi tədbirlər görülmüş və zavodun rəhbərliyi yeniləşdirilmişdir. Bu il zavodun bütün imkanları nəzərə alınaraq istehsalat planı artırılmış və Naxçıvan MSSR Yerli Sənaye Nazirliyi sistemində olan Sirab mədən suyu sexi də bir milyon butulka su istehsalı planı ilə zavodun sərəncamına verilmişdir.

Zavodun yeni direktoru əlaqədar təşkilatlarla birlikdə Badamlı mədən suları zavodunun işinə nəzarəti artırmalı və belə nöqsanların təkrar olunmasına yol verməməlidirlər.

**"Şərq qapısı" qəzeti,**
**19 iyul 1957-ci il. № 85 (5787)**

# və bu gün

## Azərbaycanın ilk və ən məşhur su brendi

***Şərqin qədim yaşayış məskənlərindən olan Naxçıvanın füsunkar təbiəti mineral sularla çox zəngindir. 250-dən artıq mineral su mənbəyinin qeydə alındığı bu diyarı təsadüfi olaraq təbii və mineral sular muzeyi adlandırmışlar. Onlar kimyəvi tərkibinə görə müxtəliftipli olub təsərrüfatda, içməli su təchizatında, müalicə məqsədilə və sənayedə istifadə edilir. XX yüzillikdə aparılan araşdırmalar nəticəsində müəyyən olunub ki, Naxçıvanda mineral suların 6 tipi, 16 sinfi və 33 müxtəlif növü mövcuddur. Bu suların 98 faizi karbon qazlı olub, hidrokarbonatlı sulara aid edilib. Muxtar respublikanın mineral su bulaqları arasında məşhur "Badamlı" mineral sular qrupu xüsusi yer tutur.***

Şahbuz rayonu ərazisindəki çay vadiləri boyu 40 kvadratkilometr sahədə 50-dək mineral su mənbəyi kəşf olunub. Bunlardan biri də adı dillər əzbəri olan, şəninə mahnılar yazılan "Badamlı" mineral su bulağıdır. Şahbuz dağlarında, dəniz səviyyəsindən 1274 metr hündürlükdə çağlayan bu sular XIX əsrin sonlarında baş verən zəlzələ nəticəsində ortaya çıxıb və olduqca şəffaf, iysiz və rəngsizdir. Kimyəvi tərkibinə görə karbon qazlı, hidrokarbonatlı-xlorlu-natriumlu-kalsiumlu sular qrupuna aiddir. 5 saylı quyudan çıxan suyun tərkibi isə Rusiyanın məşhur "Arşan" bulağının suyuna yaxın olub, "Narzan" tipli sular qrupuna aid edilir.




"Badamlı" mineral suyunun kəşfi və dünyada tanıdılması geologiya-minerologiya elmləri doktoru Əziz Əsgərovun adı ilə bağlıdır. 1945-47-ci illərdə onun rəhbərliyi altında Badamlı qəsəbəsi ərazisində aparılan elmi-tədqiqat işlərinin nəticəsində "Badamlı" mineral bulağı aşkar olunub. Tədqiqatçı bu barədə xatirələrində yazırdı: "Müəyyən marşrut üzrə hərəkət edərkən hansısa çeşmənin yanında tədqiqat işlərinin aparılması üçün bəzi yardımçı əşyaları daşıyan yük heyvanını suvarmaq istədim. Gördüm ki, heyvan su içmədi. Suyun fərqli tamı var idi. Çeşməboyu yuxarı gedib onun mənbəyini tapdım. Götürülən nümunədən başa düşdüm ki, bu qiymətli bulaqdır. Laborator analizlər də bunu təsdiq etdi. Sevincimin həddi-hüdudu yox idi".

Aparılan tədqiqatlar nəticəsində müəyyən olunub ki, mədə-bağırsaq, qaraciyərin bəzi xəstəlikləri zamanı bu mineral suyu içmək faydalıdır. Buruq quyularının bəzilərində isə suyun minerallaşma dərəcəsi az olduğundan süfrə suyu sayılır. Bu səbəbdən də "Badamlı" mineral suyundan süfrə və müalicə məqsədilə istifadə edilir. Beləliklə, 1947-ci ildə kiçik istehsal sahəsi yaradılaraq Azərbaycanda ilk dəfə əl üsulu ilə su istehsalına – mineral suyun qablaşdırılmasına başlanılıb. Hələ o zamandan ölkəmizin şəhərlərinə göndərilən "Badamlı" suyu ölkənin hər yerində məşhur oldu.

İlkin vaxtlar istehsal sadə formada aparıldığından mövcud su ehtiyatından tam istifadə edilmirdi. "Badamlı"ya olan tələbat gündən-günə artdığından suyun mənbəyində zavod tikilməsi, istehsal prosesinin mexanikləşdirilməsi və daha çox su istehsal etmək qərara alınır. 1948-ci ildə zavod tikilməyə başlanır. Qısa müddət ərzində kənddə böyük zavod və müxtəlif istehsalat binaları tikilir. Zavodda işə salınan "İnvesta" markalı avtomat sudolduran maşın iş prosesini mexanikləşdirir və məhsul istehsalını kifayət qədər artırır.

Ötən əsrin 70-ci illərində xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründə həyata keçirilən tədbirlər çərçivəsində yeni zavodun qurulması "Badamlı" mineral suyunun istehsal həcmini artırır. "Badamlı"nın şöhrəti ozamankı Sovet İttifaqı miqyasında sürətlə yayılırdı. Qısa müddətdə bu mineral suya böyük tələbat və rəğbət yaranır. Artıq 1970-1980-ci illərdə "Badamlı" zavodunda istehsal olunan məhsulun 90 faizi xarici ölkələrə ixrac edilirdi.








Lakin təəssüflə qeyd etməliyik ki, ötən əsrin 90-cı illərində baş verən hadisələr digər sahələr kimi, "Badamlı" suyunun istehsalına da ciddi ziyan vurmuş, zavodun fəaliyyəti dayandırılmışdı.

1947-ci ildən bəri kiçikdən-böyüyə hər kəsin dilində əzbər olan "Badamlı" suları müasir dövrümüzdə də Azərbaycanın su bazarında ən çox sevilən məhsullardan biridir. Mineral suya olan tələbatın artması 2009-cu ildə "Badamlı" mineral suyunun ikinci dəfə sənaye üsulu ilə istehsalına şərait yaratdı. Həmin il Naxçıvan şəhərində "Badamlı" mineral suyunun istehsalı üçün yeni zavod inşa edilib istifadəyə verildi. Bunun üçün suyun yatağından – 25 kilometr məsafədən iki su xətti çəkilib zavoda gətirildi.

"Badamlı"ya tələbatın xarici bazarda daha çox artması yeni və daha böyük zavodun tikilməsini zəruri etdi. Eyni zamanda mineral su ixracına sertifikat verən təşkilatların rəylərinə əsasən butipli sular mənbədən ən çox 3 kilometr məsafəyə daşınaraq istehsal olunmalıdır. Təqdim olunan şərtlər və aparılan iqtisadi dəyərləndirmələr əsas götürülərək Badamlı qəsəbəsində yeni zavodun tikilməsi məqsədəuyğun hesab edildi.

İnşa edilən yeni zavod 42,5 min kvadratmetr sahəyə malik olmaqla, burada istehsal, filtrasiya, kompressor bölmələri, xammal, hazır məhsul, ehtiyat hissə, nümunə məhsullarının saxlanılması anbarları və laboratoriya yaradıldı. Üç sudoldurma xətti yaradılan istehsal bölməsində Türkiyənin "Ektam" və Fransanın bu sahədə dünya üzrə məşhur "Sidel" şirkətlərinin ən müasir avadanlıqları quraşdırılıb. Yeni sudoldurma xətlərinin idxalına İqtisadiyyat Nazirliyi tərəfindən 2 halda İnvestisiya təşviqi sənədi verilib. Əgər Sovetlər Birliyi dövründə Badamlı qəsəbəsində qurulan zavodda bulağın suyunun 40 faizindən istifadə olunurdusa, müasir texnologiya əsasında qurulan yeni zavodda su ehtiyatından 100 faiz istifadə edilir. Yeni zavodun istifadəyə verilməsi muxtar respublikada ixrac imkanlarının genişlənməsinə, büdcə daxilolmalarının artmasına, digər istehsal sahələrinin yaranmasına, yeni iş yerlərinin açılmasına və ətraf kəndlərdə yaşayan əhalinin məşğulluğunun təmin olunmasına da imkan verir.

Zavodun laboratoriyasında suyun tərkibini və minerallığını öyrənməyə imkan verən ən müasir avadanlıqlar qurulub. Yüksəkixtisaslı mütəxəssislərin nəzarəti altında tam avtomatlaşdırılmış avadanlıqlarla, əl dəymədən, gigiyenik qaydalara əməl olunmaqla butulkalara doldurulan suyun keyfiyyət göstəriciləri laboratoriya analizlərindən keçirilmədən istehsala buraxılmır. Qaynağından toplanan "Badamlı" suyu Avropa standartlarına cavab verən bu laboratoriyada fiziki, kimyəvi və mikrobioloji analizlərdən keçirilərək ən təbii halı ilə süfrələrinizə gəlib çatır. İstehsal olunan məhsullar isə analiz edilib rəy verilmədən heç bir halda istehlakçıya göndərilmir.

İllik istehsal gücü 150 milyon şərti butulka olan müəssisədə 2021-ci ilə qədər qazlı və qazsız olmaqla, 14 çeşiddə məhsul istehsal edilirdisə, hazırda 7 çeşid qazlı, 14 çeşid qazsız olmaqla, 21 çeşiddə müxtəlif qablaşdırmalarda normal və premium su istehsal edilir. Bütün bunlar da muxtar respublikanın ixrac imkanlarının artırılmasına və məşğulluğun təmin olunmasına mühüm töhfə verir.

İnsan sağlamlığı üçün zəngin mineral tərkibə malik, milli və beynəlxalq standartlara cavab verən təbii mineral su 70 ildən çoxdur ki, süfrələrimizi bəzəyir. Hazırda Azərbaycanda elə bir məclis tapılmaz ki, orada "Badamlı" suyundan istifadə olunmasın. Məhz buna görə də ötən il Azərbaycanın ilk mineral su brendi "Badamlı" uşaqlar üçün hazırladığı yeni "BUVA" sularını da istehlakçılara təqdim edib. Azərbaycanda uşaqlara özəl ilk su markası olan "BUVA" özünəməxsus görünüşü və adı ilə qısa zamanda uşaqların ən sevimli suyuna çevrilib. 6 ədəd qablaşdırılmış şəkildə satışa təqdim olunan "BUVA" sularını xüsusi edən təkcə onun adı və dadı deyil, eyni zamanda uşaqlar rahat içsin deyə hər bağlamda 2 ədəd xüsusi başlığın hədiyyə edilməsidir.

Şirkətin adının və mövqeyinin bazarda daha dayanıqlı olması üçün müxtəlif kommunikasiya vasitə və üsullarından istifadə etməklə genişmiqyaslı addımlar atılıb. Müştərinin istək və ehtiyaclarına daha həssas yanaşaraq, su istehlakçılarının loyallığının artırılması və brendin hazırkı vəziyyətinin daha da yaxşılaşdırılması istiqamətində rebrendinq edilib.

Bu gün muxtar respublikada yaradılan dayanıqlı sosial-iqtisadi inkişaf təbii sərvətlərimizin sənaye üsulu ilə istehsalına əlverişli şərait yaradıb, Naxçıvan ölkəmizin əsas mineral su ixracatçısına çevrilib. "Badamlı" mineral suyunun şöhrətinin geri qaytarılması və yeni zavodun tikilməsi də bu sahədə görülən işlərin davamıdır. Müəssisədə istehsal edilən mineral su daxili bazarda tələbatı ödəməklə yanaşı, həm də ölkəmizin digər regionlarına və xarici bazarlara çıxarılır. Bu gün "Badamlı Mineral Sular" Məhdud Məsuliyyətli Cəmiyyətinin məhsulları Rusiya, Qazaxıstan, Birləşmiş Ərəb Əmirlikləri, Çin, İraq, Kanada kimi yaxın və uzaq ölkələrə ixrac olunur və getdikcə öz alıcı kütləsini artırır. Beynəlxalq miqyasda məhsula artan tələbat "Badamlı"nın yaxın zamanlarda Türkiyə, Özbəkistan və Ukrayna respublikalarına ixracını da məqbul edib.

Bu qiymətli təbii sərvətin ixrac imkanlarının artması, xarici bazarda özünəməxsus yer tutması və möhkəmlənməsi bir tərəfdən biznes əlaqələrinin genişləndirilməsi ilə bağlıdırsa, digər tərəfdən "Badamlı" təbii mineral süfrə suyunun dünya standartlarına uyğun yüksəkkeyfiyyətli istehsalı və müalicəvi əhəmiyyəti ilə əlaqədardır.

Yenicə yola saldığımız ötən ilin yaddaqalan iqtisadi uğurlarından biri də məhz bu istiqamətdə görülən işlərin yeni bir mərhələyə qədəm qoyduğunun əyani ifadəsi olaraq öz sıralarında 50 ölkəyə aid 5 mindən çox şirkət və təşkilatı birləşdirən "Caspian Energy Club"un həyata keçirdiyi biznes-networkinq tədbirlərinin nəticəsi kimi keyfiyyət standartlarına, şəffaflığına və göstərdiyi həssasiyyətə görə fərqlənən "Badamlı Mineral Sular" Məhdud Məsuliyyətli Cəmiyyətinin "İlin mineral suyu" mükafatına layiq görülməsi oldu. Bütün bu uğurlar isə muxtar respublika iqtisadiyyatının inkişafına, təbii sərvətlərdən məqsədyönlü istifadəyə dövlət qayğısının bəhrəsidir. Ali Məclisin Sədri demişdir: ***"Muxtar respublikanın təbii sərvətlərindən səmərəli istifadə təmin edilməli, yeni müəssisələr fəaliyyətə başlamalı, daxili tələbat ödənilməli və ixracyönümlü məhsul istehsal olunmalıdır. Çünki təbii sərvətlərdən səmərəli istifadə inkişaf deməkdir".***

***P.S.*** *Zavoddakı avadanlıqların ahəngdar səsi, istehsal olunmuş hazır məhsulun elektromobillər vasitəsilə anbara daşınması fonunda, zavodun bir hissəsində nümayiş etdirilən, vaxtilə istifadə olunmuş "Badamlı" butulkaları bir məlumatı yadıma salmağa kömək edir. Rusiyanın Kaluqa şəhərindəki Dövlət Kosmonavtika Tarixi Muzeyində kosmosa ilk uçan insan – Yuri Qaqarin və digər kosmonavtların uçuşa hazırlaşdıqları təlim-məşq və istirahət otaqlarının modeli fəaliyyət göstərir. Muzeydə saxlanılan əşyalardan biri də məhz kosmonavtların təlim zamanı içdikləri "Badamlı"nın butulkasıdır. Şahbuzun "Badamlı"sı altmış ildir, burada qorunub saxlanılır. Kosmonavtika Günü ilə bağlı Rusiyanın kanallarında muzeylə bağlı hazırlanan süjetlərdə doğma "Badamlı"mızı da görmək insana ayrıca fəxarət hissi yaşadır.*

**Məmməd BABAYEV**

# Folklorumuzun görkəmli tədqiqatçısı

***Folklor milli-mənəvi dəyərdir, xalqın qədimlərdən günümüzə doğru gələn yaddaşıdır, tarixidir. Elə bir yaddaş ki onda tarix qədər əhəmiyyətli nüanslar da görmək mümkün olur. Folkloru – milli yaddaşı qorunan xalq zirvədə olar. Onu bu zirvədən salmaq mümkün deyil; o zamanadək ki, o öz milli yaddaşını unuda, ona dönük çıxa. Milli yaddaşını qoruyan, onu gələcəyə ötürməyin vacib missiya olduğunu anlayıb, bu yolda fədakarlıqla çalışanlar xalqa, sözün əsl mənasında, xidmətkardırlar. Bəli, Azərbaycan xalqının milli yaddaşı da zəngindir, tarixidir. Bu zənginliyi zaman-zaman müxtəlif mütəxəssislər aşkara çıxarıb xalqa təqdim edib, gələcəyə ötürüb. Onların bəziləri peşəkar olsa da, bəziləri həvəskarlıqla bu müqəddəs işi həyata keçirib. Lakin hər iki hal xalqın taleyi ilə bağlı müqəddəs iş kimi böyük əhəmiyyət daşıyır.***

Azərbaycan folklorunun da müxtəlif zamanlarda toplayıcıları, naşirləri, tədqiqatçıları olub. Onlar bu işi kiminsə tələbi və istəyilə deyil, xalqının gələcək taleyini düşünərək həyata keçirmişlər: Hənəfi Zeynallı, Vəli Xuluflu, Salman Mümtaz, Həmid Araslı, Ərtoğrol Cavid, Məmmədhüseyn Təhmasib və digər görkəmli folklorşünasların itib-batan örnəklərin üzə çıxarılmasındakı böyük rolu ədəbiyyatşünaslığımızda ən öncül sıralardadır. Milli-mənəvi dəyərləri toplayıb, onları gələcəyə ötürən müqəddəs peşə sahiblərindən biri də XXI əsr Azərbaycan folklorşünaslığına özünün dəyərli və sanballı əsərləri ilə, elmi və pedaqoji fəaliyyəti ilə töhfələr bəxş etmiş professor Məhərrəm Allahqulu oğlu Cəfərlidir.




1946-cı il yanvar ayının 5-də Kəngərli rayonunun Xok kəndində dünyaya göz açan Məhərrəm Cəfərlinin qəlbində doğma yurdunun əsrarəngiz təbiəti qədimliyi ilə çulğaşaraq elə bir dərin iz buraxmışdı ki, alim kəndindən uzaq düşdüyü vaxtlarda belə bu məkanın həsrətini hər an qəlbində hiss edir və bunu ətrafında olanlardan gizlətmirdi; hətta bütün coşqusu ilə doğma kəndini arzuladığını bildirirdi. Odur ki, fürsət düşən kimi böyüyüb boya-başa çatdığı Xok kəndində, ata ocağında bütün varlığı ilə nəfəs alırdı. Burada yaşadıqlarını heç nəyə, heç bir zövqə dəyişməzdi. Doğma kəndinin şəfəqli gündüzləri kimi qaranlıq gecələri də alimin qəlbini riqqətə gətirir, keçmişi xatırlayardı.

Məhərrəm Cəfərli xalqının mənəvi sərvətini üzə çıxarmaqda əsl mütəxəssis idi. Çox az peşəkar folklorşünas tapılar ki, həm toplayıcılıq, həm də nəzəriyyəçilik qabiliyyətinə, o cümlədən yüksək səviyyəli elmi tədqiqatçılıq bacarığına yiyələnmiş olsun. Bəzən folklorçuda bunların biri varsa, digəri ola bilər ki, özünü zəif şəkildə büruzə versin. Məhərrəm müəllimdə isə bunların hər ikisi ən yüksək səviyyədə idi. Folklor ekspedisiyalarında toplayıcının ən çox üzləşdiyi problem informatorla ünsiyyətin qurulmasıdır: heç də həmişə informatoru danışdırmaq, ondan istənilən cavabları almaq mümkün olmur. Bunu bacaran, sözün əsl mənasında, peşəkar olmalıdır. Məhərrəm müəllim informatorla – söyləyici ilə elə bir diskussiya təşkil edirdi ki, informator bütün “sirləri açıb tökürdü”. Məhərrəm müəllim yüksək səviyyəli, peşəkar folklor toplayıcısı idi və bütün bunlarla yanaşı, Azərbaycanın müasir folklorşünaslığında öz sözünü lazımınca demiş alim idi. Onun bir-birindən sanballı və dəyərli elmi əsərləri, kitab və monoqrafiyaları Azərbaycan folklorşünaslığına əsl töhfədir. Məhərrəm müəllim, sözün əsl mənasında, müəllim idi. O, müəllimliyi ilə tələbələrinə gündəlik proqram çərçivəsinin tələbini deyil, bütün varlığına hakim kəsilən elm – folklor elmi sevgisini tədris edirdi. Universitetdə dərs dediyi zamanlarda da folklorun tədrisindən zövq alardı. Bu sahəni ondan ala bilən ən gözəl, hətta yüksək perspektivli işləri Məhərrəm müəllim geri çevirirdi. Onu folkordan, folkloru ondan heç kəs, heç nə ala bilməzdi. Gördüyü hər işdə folklor axtarışı, folklor dünyası olmasa idi, bu ona aid deyildi.

Məhərrəm Cəfərli baxmayaraq ki, filologiya elminin bütün sahələrinə dərindən bələd olan əsl mütəxəssis idi, folklor onun üçün müqayisəolunmaz dərəcədə qeyri-adi idi. Bunun da səbəbi məlumdur: alim çox yaxşı başa düşürdü ki, xalqın tarixi müəyyən qədər onun maddi mədəniyyəti ilə gerçəkləşirsə, onun mənəvi tərəfi olmasa, natamam sayıla bilər. Bu mənəvi tərəf də məhz folklordur və mənəvi aləmi hər şeydən üstün və uca tutan şəxsiyyət olduğu, folklor da bütünlükdə mənəviyyatı ifadə etdiyi üçün bu tanınmış alimin elm dünyasında folklor xüsusi yerə malik idi. Necə ki ömrünün sonlarınadək milli yaradıcılıq aləmindən – folklordan ayrılmadı. AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Folklorşünaslıq şöbəsinə ömrünün sonlarınadək rəhbərlik etdi.

Məhərrəm müəllim öz zəngin fəaliyyəti ilə Azərbaycan folklorşünaslıq elminə çox böyük töhfələr verib. Onun həm toplayıcı kimi, həm də tədqiqatçı kimi yüzlərlə əsəri ilə elmimizdə silinməz imza qoyub. Qeyd edək ki, folklorşünas alim dərc olunmuş 150-dən çox elmi məqalənin, 25 kitabın müəllifidir. Məqalələri İran və Türkiyədə çap olunmuşdur. “Dastan və mif” kitabı isə Təbrizdə işıq üzü görmüşdür (2003). Məhərrəm Cəfərli 1998-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü idi. 2004-cü ildə “Qızıl qələm” mükafatına layiq görülmüşdü. 2008-ci ildə alim beynəlxalq mükafat olan “Türk dünyasının mədəniyyəti və elmə xidmət” mükafatı ilə təltif olunmuşdu.

Tanınmış folklorşünasın Azərbaycan folklorşünaslığının vacib və problemli sahəsi sayılan dastançılıq ənənəsinə də öz maraqlı yanaşması “Azərbaycan dastanlarının struktur poetikası” adlı əsərində əks etdirib. Alimin bu əsəri, əslində, özünün təhlil aparatı, yanaşma sistemi, etnokosmik gerçəkliyi, sufi dünyagörüşünü və Azərbaycan məhəbbət dastanı kodunu bir müstəvidə birləşdirən analitik sistemi ilə bir məktəbdir.

Alimin Azərbaycanda və xarici ölkələrdə çap olunmuş “Məhəbbət dastanlarının poetikası” (1997), “Azərbaycan məhəbbət dastanlarının poetikası” (2000), “Dastan və mif” (2001), “Dastan və mif” (2006), “Folklor və etnik milli şüur” (2006), “Folklor və Etnik – milli Şüur” (2007), “Dastan yaradıcılığı” 2007) kimi kitabları və çoxsaylı məqalələri folklorşünaslıq elmi üçün əsl töhfədir.

Alimin folklor və milli-etnik şüurla bağlı düşüncələri o qədər təbii, təbii olduğu qədər də elmidir ki, bu barədə az qala, bütün Azərbaycan folklor elmindəki örnəkləri həmin istiqamətlə hansı məkanla bağlılığını təyin etmək mümkündür. Çünki alim milli-etnik düşüncənin folklordakı təcəssümünü örnəklərdəki məkan imzaları ilə o qədər sıx olduğunu yazır ki, bu bağlılıq hansı “məhsulun” hansı məskənlə, məkanla əlaqəsini aşkara çıxara bilir. Alim məhz bu barədə öz fikirlərini elmi müstəviyə çıxararaq özündən öncə toplanmış, ən çox da özünün topladığı örnəklərdə tətbiq edərək, folklor elmi üçün faydalı nəticələr əldə etmişdir.

*Ümumiyyətlə, professor Məhərrəm Cəfərli ömrünü Azərbaycan folklorunun, bu kontekstdə də Naxçıvan folklorunun toplanmasına, nəşrinə və tədqiqinə həsr edən dəyərli alim idi. Onun əsərləri elmi-nəzəri siqləti ilə fərqlənir. Alimin elmi yaradıcılığı gələcək tədqiqatçılar üçün istiqamətverici və olduqca faydalı mənbə rolunu oynayacaqdır.*

**Aytən CƏFƏROVA**
***filologiya üzrə fəlsəfə doktoru***

# Naxçıvan şəhəri ötən ilin son və yeni ilin ilk günlərini körpə sevinci ilə qeyd etdi



*Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzində yeni ilin ilk doğumu yanvarın 1-də saat $18^{40}$-da qeydə alınıb. Naxçıvan şəhərinin Çənlibel məhəlləsində yaşayan Bahar İmanova yeni ilin ilk körpəsini dünyaya gətirib.*

Növbətçi həkimlər mama-ginekoloq Bəhriyyə Novruzova və neonatoloq Könül İbrahimovanın məlumatlarına görə, 1998-ci il təvəllüdlü ananın, eləcə də övladının vəziyyəti normaldır. Doğulan uşaq oğlandır, çəkisi 3 kiloqramdır.

Ötən ilin sonuncu günü – dekabrın 31-də isə Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzində üç körpə dünyaya göz açıb. Yeni ili körpə sevinci ilə qarşılayan Günel Yusifova, Kəmalə Ələkbərova və Aytac Seyidovanın da ailələrində bayram sevinci yaşanıb.

Bu bayram onlara həm də övlad sevinci yaşatmaqla ömür səhifələrindən heç vaxt silinməyəcək unudulmaz xatirəyə çevrilib.

Qeyd edək ki, ana və uşaqlara göstərilən tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılması dövlətin sosialyönümlü siyasətinin prioritet istiqamətlərindən biridir. Son illər muxtar respublikamızda bu sahədə mühüm tədbirlər həyata keçirilib, ana və uşaqlara tibb xidməti göstərən müəssisələrin maddi-texniki bazası möhkəmləndirilib, dərman preparatları və tibbi texnika ilə təminatı yaxşılaşdırılıb. Hazırda reproduktiv sağlamlıq və ailə planlaşdırılması problemlərinə nəzarət daha da gücləndirilib, səhiyyə maarifi işləri günün tələbləri səviyyəsində qurulub.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

***Kamil insan olmağın, öz zehnini, təfəkkürünü üstün səviyyəyə gətirməyin, müasir cəmiyyətdə qüsursuz formalaşmanın mükəmməl yolu yalnız mütaliədir. Kitablar həmişə olduğu kimi, bilikli və mədəni insanın həyatının ayrılmaz hissəsinə – ən yaxın dostuna, etibarlı sirdaşına çevrilib. Əsrlərboyu insanlar bir-birindən zahiri gözəlliklərinə görə deyil, qazandıqları bilik bacarıqlarına, yüksək mənəviyyatlarına görə dəyərləndiriliblər. Fiziki keyfiyyət anadangəlmə olsa da, insanlar daxili zənginliyi, elmi-mədəni dəyərləri normal biliyin əsas xəzinəsi olan kitablardan qazanıblar.***

# Mütaliə müasir cəmiyyətin inkişafında müstəsna rol oynayır

Yaradıcı fəaliyyət göstərən, elmli, mütaliyə üstünlük verən insanların sayı çox olduqca, cəmiyyət daha da inkişaf etmiş olur və bu da cəmiyyətin maariflənməsinə, müasirləşməsinə, inkişafına birbaşa təsir edir. Hər bir insan mütaliə etdikcə qazandığı biliklərdən lazımi vaxtda, tələb olunan yerdə cəmiyyətə faydalı olmaqda istifadə edərsə, zaman keçdikcə müasir cəmiyyətin formalaşmasının şahidi olar, öyrəndiklərindən mənəvi qazanc götürərək cəmiyyətin fərqli fərdinə çevrilər. Hərtərəfli inkişaf kitablarla davamlı ünsiyyət, mütaliənin daha çox insanı əhatə etməsi ilə mümkündür.

Sadə bir misal: Ailə də kiçik bir cəmiyyət modelidir. Əgər ailədə uşaq valideynlərini daim kitab oxuyarkən görərsə, uşağın kiçik yaşlarından onların əlində olan əşyaya marağını artıracaq, özünü dərk edərkən o da gələcəkdə mütləq kitaba, mütaliəyə meyilli olacaqdır. Kitaba, mütaliəyə maraq zəif olan bir ailədə, cəmiyyətdə heç bir inkişafdan, maariflənmədən danışmaq olmaz və bu da zamanla ailənin, cəmiyyətin zəifləməsi, geri qalması deməkdir.

Kitabları əldə etməyin yolu kitab mağazaları və kitabların əsas saxlandığı məkan olan kitabxanalarla sıx əlaqə olmalıdır. Mütaliənin təbliği – kitabxana fəaliyyətinin əsas iş prinsipidir. Mütaliə etmək üçün müasir kitabxanalar mövcuddur ki, orada kitabxanaçılar oxucu kütləsinin lazımi tələbatını ödəyir, kitab seçimində onlara bələdçilik edir. Bundan əlavə, mütaliənin faydalı olmasında kitab seçiminin düzgün aparılması önəmli rol oynayır. Bu isə peşəkar kitabxanaçıların məsləhəti, yönləndirməsi ilə daha səmərəli olur.

İlk dəfə oxuyanlar asan başa düşülən, sadə üslublu kitablara müraciət etməlidir. Bəzən insanlar qəliz, çətin olan ədəbiyyat seçdikdə tez yorulur, bu da onların mütaliəyə, kitaba həvəsini azaldır, hətta həyata baxışlarını mənfi istiqamətə doğru dəyişir və ya kiminsə məsləhət gördüyü kitabı oxuması tövsiyə edilir, marağı olmadan oxuyur, kitabdan faydalanmır. Nəticədə, mütaliədən uzaqlaşır. Heç bir kitab hamı üçün eyni ola bilməz. Bir müdrik kəlamda deyildiyi kimi: “Kitabları sevin, lakin hər əlinizə düşəni oxumayın. Sizin üçün gərəkli olanı mütaliəni edin!”

Əksər dahilər, dünya şöhrətli elm və mədəniyyət adamları çatdıqları yüksək səviyyəyə və mövqeyə görə kitablara, mütaliəyə borclu olduqlarını minnətdarlıqla ifadə ediblər. Onların qiymətli kəlamları zaman-zaman insanları geniş mütaliəyə çağırıb.

Ulu öndər Heydər Əliyev mütaliənin insanın bütöv şəxsiyyət kimi formalaşmasının əvəzsiz köməyini də vurğulayıb, bu sahədə kitabxanalardan mənəvi xəzinə, mənəviyyat ocağı kimi bəhs edir: ***“Kitabxana xalq, millət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir”.***

Kitablar ilkin baza biliyinin mənbəyi, yaradıcısıdır. Mütaliəyə erkən yaşlarından başlamaq fərdin intellektual inkişafına, mədəni ünsiyyətinə, peşə seçiminə böyük təsir göstərir. Kitab bir insanın taleyinin müsbətə doğru dəyişməsi üçün lazım olan dəyərli vasitədir. Ali Məclis Sədrinin Sərəncamı ilə “Oxunması zəruri olan kitablar Siyahısı”na daxil edilən ABŞ-ın 16-cı prezidenti Avraam Linkolnun oğlunun müəlliminə yazdığı məktubunda da kitaba olan məhəbbət, hörmət öz əksini tapmışdır: “Əgər bacara bilsəniz, ona kitabların möcüzəli bir nemət olduğunu öyrədin”. Kitab oxumaq insanda özününinamı artırır, söz ehtiyatı çoxalır, səlis nitq qabiliyyəti formalaşır, onu hazırcavab edir, bir sözlə, cəmiyyət üçün mükəmməl, təkmilləşmiş şəxsiyyətə çevirir. Özü də hiss etmədən mənəvi varlığa qovuşur. Mütaliə, kitablar – uğurlu həyat yolunun, biliklərin, mənəvi sərvətin zənginliyinə yol açır. Necə deyərlər, az pulla böyük sərvət əldə etmək istəyirsənsə, kitab al!

Kitab az pulla gələcəyə qoyulan, itirilməyən yüksək sərmayədir. Frensis Bekonun fikrincə, “Kitablar zamanın dalğaları ilə səyahət edən və nəsildən-nəslə öz qiymətli yükünü ehtiyatla aparan fikir gəmiləridir”.

Başqa bir nöqtədən baxsaq, belə kitabların insan həyatında aparıcı rol olduğunu bir daha sübut edərik. Belə ki, Bernar Verberin fikrincə, insanlar iki kateqoriyaya bölünür: “Kitab oxuyanlar, kitab oxuyanlara qulaq asanlar”.



Deyə bilərik ki, mütaliəsi olan insanlar təfəkkürün dərinləşməsi ilə daha dərin düşünmə xüsusiyyətinə sahib olurlar ki, bu da onlara rastlaşdıqları çətinlikləri dəf etməkdə, ətrafdakılara düzgün ünsiyyət qurmaqda kömək edir. Belə insanlar cəmiyyətdə özlərinə nisbətən zəifləri öz təmiz qüsursuz nitqləri, dolğun fikirləri ilə tez təsir altına salır. Diskussiya zamanı əlbəttə ki, öz fikrini tam şəkildə ifadə edən insanlar həmişə müzakirə ortamını peşəkarcasına ələ ala bilirlər.

Kitab oxumaq həyatdan uzaqlaşmaq deyil, həyatı daha dərindən başa düşmək, sevmək, ondan qazanc götürmək üçündür. Müasir dövrümüzdə mövcud dünyadan uzaqlaşaraq, xəyali dünyalarında asudə vaxtlarını internet klublarda, kompüter arxasında, əyləncə mərkəzlərində keçirən gənclər, itirilən bu vaxtlarını səmərəli keçirərək, gündə bir saatlarını kitab oxumağa ayırsalar, real həyata baxışlarının dəyişdiyini, düşüncə tərzinin daim artdığının şahidi olarlar.

Kitab oxumağı özlərində vərdiş halına salan insanlara vaxt lazım olmur, onlar əlverişli olan hər vəziyyətdə fürsət tapıb oxuyurlar. Mütaliə edərkən vaxtlarının necə keçdiyini belə, hiss etmirlər. Vaxtı dayandırmaq üçün sehrli çubuq lazım deyil, sakit məkan, maraqlı kitab və çay götür.

İnsanın ağlı, zəkası, savadı, müzakirə, mübahisə zamanı öz fikirlərini dolğun şəkildə izahını təhlil etməsi, mənəvi inkişafında faydalı olan kitablara, mütaliəyə üstünlük verməsi onun cəmiyyətdə layiqli yer tutmasına gətirib çıxarır ki, bu da hər zaman bir pillə öndə olmaq, fərqlənmək deməkdir.

2017-ci il avqustun 28-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun “Oxunması zəruri olan kitablar haqqında” Sərəncam imzalaması ilə muxtar respublikamızda intellektual gələcəyimizin daha mükəmməl şəkildə formalaşdırılmasına hesablanmış mühüm bir addım atıldı. Bu Sərəncam təkcə muxtar respublikamızın deyil, ölkəmizin təhsil işçiləri, tanınmış ziyalıları tərəfindən böyük rəğbətlə qarşılandı. Ötən dövr ərzində həmin siyahıda yer alan 30-dan artıq kitaba artan kütləvi maraq həmin kitabların gənc nəsildə vətənpərvərliyin, tarixə, milli köklərə bağlılığın formalaşdırılmasına əsaslı təsir göstərən ideoloji mənbələr rolunu oynadığını, onların kənar təsirlərdən qorunması üçün dünyagörüşünü zənginləşdirdiyini, dövlətə, dövlətçiliyə, Vətənə, xalqa bağlılıq hissləri aşıladığını bir daha təsdiq etdi.

Kitabların ucaltdığı insanları bir daha dinləyək və onlara inanaq: “Kitabları, mütaliəni sevin! Onlar sizin həyatınıza bələdçilik edən, səssiz, dilsiz həyat müəllimlərinizdir”.

**Günay ƏLİYEVA**
***Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasının baş kitabxanaçısı***

*Ötən ilin, bizim elin uğurları*

# Jurnalistika və incəsənət sahəsində uğurlarla yaddaqalan il

*Bir ili də geridə qoyduq. 2021-ci il həm də "Şərq qapısı" qəzetinin 100, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin 50 illik yubileylərinin dövlət səviyyəsində qeyd olunması ilə yadda qaldı. Hər iki tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri iştirak etmiş, Naxçıvanda mətbuat və rəssamlıq sahəsi ilə bağlı dəyərli fikirlər səsləndirmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 17 dekabr tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasında mətbuatın inkişafında səmərəli fəaliyyətlərinə görə bir sıra qəzet və nəşriyyat əməkdaşları, həmçinin dövlətimizin başçısının oktyabrın 16-da, Ali Məclis Sədrinin isə 2021-ci il 15 iyul tarixdə imzaladığı müvafiq sərəncamlarla mədəniyyətimizin inkişafındakı xidmətlərinə görə rəssamlar təltif edilmişlər. Onlarla həmsöhbət olduq, fəaliyyətləri barədə öyrəndik…*



"Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti" fəxri adı ilə təltif olunan, "Şərq qapısı" qəzeti ilə, ümumiyyətlə, mətbuatla hələ orta məktəbdə oxuduğu və müəllim kimi fəaliyyət göstərdiyi dövrlərdən sıx bağlı olan "Şərq qapısı" qəzetinin məsul katibi ***Muxtar Məmmədov*** dedi ki, mətbuatda ilk yazısı 1970-ci ildə, o vaxt "Yeni Ordubad" (indiki "El həyatı") adı ilə nəşr olunan qəzetdə işıq üzü görüb. Bir qədər sonra "Şərq qapısı", "Azərbaycan gəncləri", "Ədəbiyyat və incəsənət" qəzetlərində, "Təşviqatçı", "Müxbir" jurnallarında məqalələri dərc olunub: – Ötən il 100 yaşını böyük təntənə ilə qeyd etdiyimiz "Şərq qapısı"nda 20 ildir ki, fəaliyyət göstərirəm. Bu müddətdə qəzetə, qəzet əməkdaşlarına göstərilən diqqət və qayğının şahidi olmuşam. Sıravi müxbirlikdən məsul katib vəzifəsinə qədər bir yol keçmişəm. Əməyim həmişə yüksək dəyərləndirilib. Doğma "Şərq qapısı"nın 90 illik yubileyində mənzillə təmin olunmuşam. Bu o vaxt idi ki, ölkə Prezidentinin mətbuat işçilərinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı müvafiq sərəncamlarına əsasən Bakıda tikiləcək ictimai yaşayış binasının bünövrəsi qoyulurdu. Bu böyük qayğının ayağı sayalı oldu. 2015-ci ildə milli mətbuatımızın 140 illik yubileyi ərəfəsində ölkə Prezidenti tərəfindən "Tərəqqi" medalı ilə təltif edilmişəm. Doğma "Şərq qapısı" qəzetinin 100 illik yubileyi ilə əlaqədar keçirilən yaradıcılıq müsabiqəsində I yerə çıxaraq diplom almışam. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı ilə "Əməkdar jurnalist" fəxri adına layiq görülmüşəm. Bütün bunlar Naxçıvanda mətbuatın inkişafına, mətbuat işçilərinə göstərilən ən böyük qayğıdır. Təbii ki, belə qayğı, ümumilikdə, muxtar respublikada jurnalistikanın inkişafına öz müsbət təsirini göstərir. Mən də bundan ruhlanaraq mətbuatda işlədiyim dövrdə 4 kitab nəşr etdirmişəm. Mətbuata göstərdiyi böyük qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə dərin minnətdarlığımı bildirirəm.

"Rəşadətli əməyə görə" nişanı ilə təltif olunan ***Şərəf Mənsumova***, qəzet əməkdaşlarının təbirincə desək, Şərəf xala ilə həmsöbət olduq, o, sevincini bölüşərək bildirdi ki, 44 ildir, ömrünü nəşriyyat, mətbuat işinə sərf edib: – Əvvəllər qəzet səhifələri linotip adlı həcmcə böyük maşınlarda yığılır və çap edilirdi. Bu zaman həm vaxt itkisi yaşayır, həm də iş prosesindəki qurğuşun zəhərinin təsirindən sağlamlığımızı ciddi təhlükə qarşısında qoymalı olur, əllərimiz qaraya boyanırdı. Əvvəllər şrift dəstləri də çox məhdud idi. İndi elə kompüter proqramları vardır ki, qəzetçiyə bəzən onlarla, yüzlərlə şrift forması təqdim edir. Muxtar respublika rəhbərinin qayğısı ilə hələ 1996-cı ildə mətbəəyə ilk kompüter verildi, işimiz xeyli yüngülləşdi. 2000-ci ildə "Şərq qapısı" qəzeti ayrılıqda öz fəaliyyətinə başladı ki, elə həmin ildən burada kompüter operatoru kimi fəaliyyətimi davam etdirirəm. Bu gün qəzetimizdə hər cür şərait yaradılıb, redaksiyamız müasir maddi-texniki baza ilə təmin olunub. Bir sözlə, işimizi rahat və keyfiyyətli şəkildə yerinə yetirə bilirik. Mətnlər jurnalistlər tərəfindən yazılıb bizə verildikdən sonra həmin əlyazmaları kompüterə köçürür və çapa hazırlayırıq. Beləliklə, jurnalist məqalələrinin ilk oxucusu da özümüz oluruq.

Şərəf xaladan qəzetdə bu qədər uzun müddət çalışmağın sirrini də öyrənirəm: – Bir dəfə bezdim, sıxıldım deməmişəm. Hər gün işə olan sevgim, məhəbbətim daha da artır, gördüyüm işdən zövq alıram, hələ də ilk günkü kimi eyni həvəslə işə gəlirəm. Bizim işimiz məsuliyyətlidir, dəqiqlik tələb edir. Bu həm də qəzetin oxucusuna hörmət deməkdir. Ötən il dekabrın 18-də qəzetimizin 100 illik yubileyi təntənə ilə qeyd edildi. Mənim də fəaliyyətim yüksək qiymətləndirildi.

"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyinin "Rəşadətli əməyə görə" nişanı ilə təltif olunan əməkdaşlarından ***Çingiz Ağayev***lə söhbət etdik. Müsahibim bildirdi ki, 2010-cu ildən mətbəədə montajçı işləyir: – Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri nəşriyyat işini, nəşriyyat işçilərini həmişə öz diqqətində saxlayır. Bizə göstərilən qayğının bir nümunəsi də "Rəşadətli əməyə görə" nişanı ilə təltif olunmağımızdır. Buna görə çox minnətdaram. Bundan sonra da əlimizdən gələni əsirgəməyəcək, çalışacağıq ki, işimizi düzgün və məsuliyyətlə yerinə yetirək.

Nəşriyyatın digər bir əməkdaşı ***Esmira Heydərova*** ilə söhbətimiz zamanı öyrənirik ki, mətbəədə 2012-2014-cü illərdə cildləyici, 2014-ci ildən sahə ustası vəzifəsində çalışır: – Üzərimizə düşən vəzifələri həmişə məsuliyyətlə yerinə yetirməyə çalışmışıq. Böyük uğurlarımızdan biri mənim iştirakımla "Naxçıvan dastanı", "Naxçıvan haqqında ballada", şəhid baş leytenant Raqib Hüseynova həsr olunmuş "Bir zirvənin fatehi" adlı miniatür kitabları hazırlamağımızdır. Əməyimin yüksək qiymətləndirilməsi sevindiricidir, qürurvericidir. Bunun üçün dövlətimizə minnətdaram.

Prezident cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə təltif edilən rəssamlarla da həmsöhbət olduq.

Öyrəndik ki, Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbinin məzunu olan ***Fikrət Babayev***in rəsm əsərləri 1970-ci illərdən Moskva, Bakı və Naxçıvanda keçirilən müxtəlif sərgilərdə nümayiş etdirilib. 1987-ci ildə SSRİ Rəssamlar İttifaqının gənclər bölməsinə üzv qəbul olunub. Yaradıcılığında portret, mənzərə, natürmort, kompozisiya və digər janrlar üstünlük təşkil edən rəssamın əsərləri Türkiyə və İran İslam Respublikasında müxtəlif şəxsi kolleksiyalarda saxlanılır. Azərbaycan Rəssamlar İttifaqının və Naxçıvan Rəssamlar Birliyinin üzvü olan müsahibim bildirdi ki, ümummilli liderimiz Heydər Əliyevin himayəsi ilə Azərbaycan Rəssamlar İttifaqının Naxçıvan Təşkilatının bazasında Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin yaradılması muxtar respublikada təsviri incəsənətin inkişafında mühüm addım olmuş, müstəqillik illərində Rəssamlar Birliyi üçün yeni bina, sərgi salonu və emalatxananın istifadəyə verilməsi ilə rəssamlar



üçün müasir iş şəraiti yaradılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Rəssamlar Birliyinin 50 illik yubileyinin keçirilməsi barədə müvafiq Sərəncamına əsasən iyulun 16-da Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin 50 illik yubileyinin yüksək səviyyədə qeyd olunması, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin həmin tədbirdə qədim və zəngin tarixə malik Naxçıvan rəssamlıq məktəbi haqqında dediyi sözlər diyarımızda incəsənətə, həmin məktəbin davamçıları olan bizlərin yaradıcılığına göstərilən böyük qayğının təcəssümüdür. Həmçinin mənim ölkə Prezidentinin müvafiq Sərəncamı ilə "Əməkdar rəssam" fəxri adı ilə təltif olunmağım, ümumiyyətlə, ölkəmizdə rəssamların fəaliyyətinə göstərilən diqqətin bariz nümunəsidir. Bundan sonra da rəssamlıq sənətini yaşadacaq, Naxçıvanımızı layiqincə təbliğ edəcəyik.

Növbəti müsahibimiz 50 ildən artıqdır peşəkar rəssamlıqla məşğul olan ***Qəhrəman Tağıyev***dir. Söhbət zamanı öyrəndik ki, 1960-cı illərdə Naxçıvan şəhərində fəaliyyət göstərən yeganə rəssamlıq emalatxanasında bu sənətin sirlərinə yiyələnən rəssamın əsərləri dünyaca məşhur azərbaycanlı rəssam Tahir Salahov tərəfindən də yüksək qiymətləndirilib. Qəhrəman müəllim Mirzə Fətəli Axundov adına Azərbaycan Pedaqoji İnstitutunu bitirdikdən sonra fəaliyyətini doğma Naxçıvanda davam etdirib. Yaradıcılığında milli mədəni irsimizin təbliği, zəngin təbiət lövhələri üstünlük təşkil edən, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin və Azərbaycan Rəssamlar İttifaqının üzvü olan müsahibimin dediklərindən: – Bu gün muxtar respublikamızda incəsənətin inkişafına, rəssamlara çox böyük qayğı vardır. Rəssamların yetişməsi, fəaliyyəti üçün hər cür şərait yaradılıb. Onların əməyi həmişə dövlətimiz tərəfindən yüksək qiymətləndirilir. Mən də ötən il Prezidentin müvafiq Sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif edilmişəm. Bunu ailəm, rəssam dostlarım böyük sevinclə qarşıladı. Fəaliyyətimə verilən böyük qiymət məni daha da ruhlandırır və yeni yaradıcılıq uğurlarına sövq edir. Bu böyük dəyər üçün dövlət başçısına, eyni zamanda muxtar respublika rəhbərinə dərin minnətdarlığımı bildirirəm.

*İstər mətbuat sahəsində çalışanlarla, istərsə də təsviri sənət ustaları ilə söhbətlərimizdən məlum oldu ki, fəaliyyətləri dövlətimiz tərəfindən yüksək qiymətləndirilən bu yaradıcı insanlar yeni ildə daha böyük ruh yüksəkliyi, ikiqat əzmkarlıqla fəaliyyətə başlayıblar. Onlara yeni uğurlar diləyi ilə...*

**Güntac ŞAHMƏMMƏDLİ**

*Yanvarın 1-də Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında Naxçıvan Dövlət Filarmoniyasının musiqi kollektivlərinin ifasında 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə konsert təşkil olunub.*

# Yeni il münasibətilə bir sıra mədəni tədbirlər keçirilib



Tədbirdə Naxçıvan Dövlət Filarmoniyasının Simfonik, Kamera, Estrada və Xalq Çalğı Alətləri orkestrləri, Mahnı və Rəqs Ansamblı, filarmoniyanın və Naxçıvan Şəhər Ərtoğrol Cavid adına Uşaq Musiqi və Bədii Sənətkarlıq Məktəbinin xor kollektivləri iştirak ediblər.

Konsert proqramı sözləri Xalq şairi Nəbi Xəzriyə, musiqisi Xalq artisti Müslüm Maqomayevə məxsus olan möhtəşəm "Azərbaycan" mahnısı ilə başlanıb, sonra Hacıbaba Hüseynovun, Ələkbər Tağıyevin, Vasif Allahverdiyevin, Emin Sabitoğlunun, Hökümə Nəcəfovanın, Vahid Axundovun və başqalarının bir-birindən maraqlı bəstələri, xalq mahnıları, xalq rəqsləri və xor əsərləri səsləndirilib. Musiqi əsərlərini Azərbaycan Respublikasının Xalq artisti Əzizağa Məmmədov, Azərbaycan Respublikasının Əməkdar artistləri Tural Nəcəfov və Gülyanaq Fərzəliyeva, Naxçıvan Muxtar Respublikasının Əməkdar artistləri Zülfüqar Mahmudov, Ruhiyyə Hüseynova və Tural Bağırov, həmçinin digər ifaçılar – Habil Qasımov, Nərmin Hüseynova və İlkin Abdullayev təqdim ediblər.

Yeni ildə Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı və Naxçıvan Dövlət Uşaq Teatrının da balaca tamaşaçıların zövqünü oxşayacaq bayram repertuarı ilə çıxışları olub.

Naxçıvan Dövlət Uşaq Teatrı "Şaxta baba gələcəkmi?" tamaşası ilə uşaqları sevindirib. Aktyorların iştirakı ilə ayı, dovşan, küpəgirən qarı, Şaxta baba, Qar qız və digər alleqorik surətlərin dili ilə günümüzlə səsləşən hadisələr canlandırılıb. Tamaşanın ssenari müəllifi və quruluşçu rejissoru Azərbaycan Respublikasının Əməkdar artistləri Tofiq Seyidov və Nurbəniz Niftəliyeva, tərtibatçı rəssamı Həbib Allahverdiyev, rejissor assistenti Nurgül Məmmədova, qrim ustası isə Aygün Seyidovadır. Tamaşa maraqlı anlarla yadda qalıb.



Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı "Kələkbaz canavar" tamaşası ilə uşaqların görüşünə gəlib. Teatrın aktyorlarının iştirakı ilə keçi, dovşan, canavar, tülkü, ayı, xoruz surətləri və başqa alleqorik personajlar uşaqlar tərəfindən maraqla qarşılanıb. Tamaşanın quruluşçu rejissoru və bədii rəhbəri Azərbaycan Respublikasının Xalq artisti Şirzad Abutalıbov, rəssamı Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Sabir Məmmədov, musiqi tərtibatçısı Əli Məmmədovdur. Tamaşanın sonunda Şaxta baba və Qar qızın gəlişi balacaları sevindirib.



Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində olan konsert-tamaşa müəssisələri və rayon mədəniyyət şöbələrinin musiqi kollektivləri bayram günlərində muxtar respublika sakinlərinə və şəhərimizin qonaqlarına yüksək mədəni xidmət göstərərək onların asudə vaxtlarının səmərəli təşkilinə çalışıblar.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

# Muxtar respublikada qış və dağ turizmi sahəsində bir ilk

Muxtar respublikada yaradılan infrastruktur turizmin müxtəlif sahələrinin inkişafına imkan verib. Son illərdə qış və dağ turizmində də mühüm canlanma müşahidə edilir. Odur ki, idmanın hava və ekstremal növləri ilə məşğul olanlar Naxçıvanda mövcud olan bu imkanlara maraq göstərirlər. Son bir neçə ildir ki, xarici ölkə alpinistləri muxtar respublikanın əzəmətli dağlarına maraqlı səfərlər edir, həmin anları sosial şəbəkələrdə paylaşırlar. Bu günlərdə isə yamac paraşütçüləri Naxçıvana səfər ediblər. Ağbulaq İstirahət Mərkəzində olan qonaqlar Ağbulağın uca dağlarından maraqlı uçuşlar həyata keçiriblər. "AirGame Paragliding" şirkətinin direktoru Fərid Məmmədov və digər idmançıların iştirakı ilə Ağbulaq İstirahət Mərkəzinin ardınca Əlincəqalanın zirvəsindən uçuşlar olub.





İzləyənlərə həyəcanlı anlar yaşadan paraşüt səyahəti muxtar respublikada bir ilk olmaqla turizmin hərtərəfli inkişafından xəbər verir.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

**İtmişdir**

Şərur rayon Muğancıq-Mehrab kənd sakini Orucova Nazlı Binnət qızının adına verilmiş JN-141 inventar nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 6